# *FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ PSİXOLOGİYA ELMLƏRİ*

**UOT:159.9**

## ŞAGİRD QRUPLARINDA ƏLVERİŞLİ SOSİAL-PSİXOLOJİ İQLİMİN YARADILMASI YOLLARI

***Dos. Aslanova Zülalə Mahmud qızı, Məmmədov İlham Məmməd oğlu, Niftəliyeva Nərgiz Nizami qızı***

***Gəncə Dövlət Universiteti***

***Ilhamgdu59@mail.ru***

***nnifteliyeva@list.ru***

**Xülasə:** *Məqalədə sinif qrupunda əlverişli-sosial psixoloji iqlimin yaradılması yolları problemi təhlil olunmuşdur.Tədqiqat prosesində müəyyən olunmuşdur ki, əlverişli sosial-psixoloji iqlim şagirdlərin bilikləri müvəffəqiyyətli mənimsəməsinə əlverişli şərait yaradır, həmçinin onların şəxsiyyətinin formalaşmasına da müsbət təsir göstərir.*

**Açar sözlər:** sinif qrupu, sinif kollektivi, əlverişli sosial - psixoloji iqlim, müəllim, sinif rəhbəri, optimalladırma

**Ключевые слова:** классная группа, классный коллектив, благоприятный социально-психологический климат, учител, классный учител, оптимизация.

**Key word:** class group, class collective, favorable social psychological climate, teacher, head of the class, optimization

Cəmiyyətdə mövcud olan institutlar içərisində məktəb boyük nüfuza malik olan sosial institutdur. Böyüməkdə olan nəslin həyatının böyük bir hissəsi burada keçir. Məktəbə ilk ləfə qədəm qoyan azyaşlı uşaqlar təhsil aldıqları illər ərzində həm fiziki, həm də psixi cəhətdən inkişaf edir, yetkin, kamil şəxsiyyət kimi sosial həyata qədəm qoyurlar.

Aparılan nəzəri və praktiki araşdirmaların nəticələri göstərir ki, şagirdlərin elmi-nəzəri biliklərə nə dərəcədə yiyələnməsində, şəxsiyyət kimi inkişaf etməsində ümumiyyətlə məktəbdə, o cümlədən də şagird qruplarında yaradılan əlverişli sosial-psixoloji iqlimin rolu müstəsnadır [ 3. 7 ].

Psixoloqlar kollektivdə “əlverişli sosial-psixoloji iqlim” anlayışını ilə “sağlam mənəvi-psixoloji mühit” anlayışlarını eyniləşdirirlər[ 4 ]. Əlbəttə, bunlar mahiyyəti eyni olan müxtəlif ifadələrdir. Başqa sözlə, hər ikisi kollektivdə xüsusi səylər nəticəsində yaradilan, onun birgə fəaliyyətinin müvəffəqiyyətinə birbaşa təsir edərək təmin edən sosial-psixoloji fenomenə işarədi.

Sinif kollektivində sosial-psixoloji iqlimin optimallaşdırılması probleminin mahiyyətini гоприяаçıqlamaq üçün ilk növbədə onun optimallaşdırılmasının mahiyyətini açıqlamaq zəruridir. Psixoloji-pedaqoji ədəbiyyatda “optimallaşdırma” anlayışına sinonim kimi“ yaxşılaşdırma”, “əlverişli etmə” anlayışlarından istifadə olunur [2,5,6 ]. Birmənalı demək olur ki, istənilən qrupda əlverişli social-psixoloji iqlimin yaradılması onun optimallaşdırılması deməkdir [ 1 ].

Bəs şagird qruplarında əlverişli sosial-psixoloji iqlimi necə yaratmaq olar?

Əlverişli social-psixoloji iqlim anlayışının mahiyyətini daha aydın açıqlamaq üçün müxtəlif mənbələrdə verilən [ 2,3,4,7 ] ideal sinif qrupunda əlverişli sosial-psixoloji iqlimin necə olması parametrlərini ümumiləşdirirərək sadalayaq:

Əlverişli sosial-psixoloji iqlim höküm sürən sinif qrupu ilk növbədə inkişaf edib kollektiv səviyyəsinə catan qrupdu. Belə qruplarda şagirdlər arasında mehriban, nikbən, sən qarşılıqli münasibətlər üstünlük təşkil edir. Bu münasibətlər əməkdaşlıq, qarşılıqlı yardım, kömək, xeyirxah prinsiplər üzərində bərqərar olur, hər bir şagird qrupun birgə fəaliyyətində iştirak etməkdən zövq alır, qrup üzvləri asudə vaxtı bir yerdə keçirməkdən zövq alırlar, münasibətlərdə qarşılıqlı dəstək və razılıq üstünlük təşkil edir.

Belə siniflərdə hər bir şagirdə qarşı hörmət və ədalətli münasibət normaları mövcud olur, həmişə zəiflərə psixololi dəstək verilir, onlar müdafiə olunur, sinifə yeni gələnə köməklik göstərilir.

Belə siniflərdə şəxsiyyətin məsuliyyətlilik, vicdanlılıq, əməksevərlik və təmənnasızlıq kimi nənəvi keyfiyyətlərinə yüksək qiymət verilir.

Belə sinifin şagirdləri fəaldılar, enerjilidirlər, bir-birinin səsinə tez səs verirlər, təlim fəaliyyətində və asudə vaxtın keçirilməsində yüksək nəticələr əldə edirlər.

Belə siniflərdə yekdillik mövcud olur, bir nəfər hamı üçün, hamı bir nəfər üçün prinsipi ön plana çəkilir, sinifin uğuru hamını sevindirir, uğursuzluğu isə hamını narahat edir.

Sinif qrupundakı əlverişli sosial-psixoloji iqlim anlayışının mahiyyətini daha yaxşıi açıqlamaq üçün onu əlverişli olmayan sosial-psixoloji iqlimlə müqyisəli təhlil edək:

İlk növbədə qeyd edək ki, əlverişli olmayan sosial-psixoloji iqlimin bir qayda olaraq inkişaf etməmiş, başqa sözlə kollektiv səviyyəsinə çatmamış sinif qruplarında mövcud olur. Belə qruplarda solğun əhval-ruhiyyə, pissimizm üstünlük təşkil edir, şagirdlərdə bir-birinə qarşı antipatiya, aqressivlik qeydə alınır, tez-tez konfliktlər müşahidə olunur, ntqativ rəqiblik mövcud olur, onlar bir-birinin şəxsiyyətini alçaldır, hər kəs özünün rəyini başlıca hesab edir, heç kimlə hesablaşmaq istəmirlər;

Belə siniflərdə qarşılıqlı münasibətlərdə ədalətlilik və bərabərlik normaları olmur, şagirdlər xüsusi imtiyaz olanlara və imtiyazı olmayanlara bölünür, zəiflərə köməklik göstərilmir, onlar gülüş hədəfinə çevrilir, sinifə yeni gələnlər özlərini qəbul edilməmiş, yad hiss edir, belələrinə qarşı çox vaxt düşmən münasibət bəslənir;

Belə siniflərdə şəxsiyyətin məsuliyyətlilik, vicdanlılıq, əməksevərlilik, səmimiyyət kimi keyfiyyətlərnə məhəl qoyulmur;

Belə sinif kollektivlərinin üzvləri passivdir, bir qismi özlərini başqalarından üstün hesab edir, onları sinifin ümumi işinə, bigə fəaliyyətinə cəlb etmək mümkün olmur;

Belə siniflərdə birinin uğuru, yaxud uğursuzluğu digərlərini sevindirmir, ona laqeyid yanaşılır, bəzən şagirdlər arasında bir-birinə qarşı paxıllıq müşahidə olunur;

Belə siniflərdə bir-biri ilə münaqişədə olan kiçik qeyri-formal qruplar mövcud olur. Bu qruplar sinifin birgə fəaliyyətində iştirak etməkdən yayınır, pozucu mövqe nümayiş etdirir, sinif qrupunun ümumi işinin uğuruna zərbə vururlar.

Sinif qrupunda sosial-psixoloji iqlimin optimallaşdırılmasında ayrı-ayrı müəllimlərin, xüsusilə də onun sinif rəhbərinin rolu müstəsnadır. Sinif rəhbərinin qrupa necə yanaşması, öz işini sevməsi, uşaqları sevməsi, pedaqoji işə marağı, demakratik ünsiyyət və rəhbərlik üslubuna üstünlük verməsi, şagirdlərin hamsına eyni münasibət bəsləməsi, öz işinə can yandırması.şagirdlərin müvəffəqiyyətini obyektiv qiymətləndirilməsi, sinifin rəyini nəzərə alması, siniflə birlikdə müxtəlif kütləvi tədbirlərdə iştrak etməsi, şagirdlərlə inamlı ünsiyyət qurması və s. sinif qrupundakı sosial-psixoloji iqlimin optimallaşdırılmasına, yəni əlverişli səviyyəyə çatdırılmasına xidmət edir.

Sinif qrupundaki sosial-psixoloji iqlimə səmərəli təsir göstərmək üçün müəllimlərdən tələb olunan şəxsi keyfiyyətlərə aşağıdakğlar aid edilir:

Onun şəxsi keyfiyyətləri (ünsiyyətçiliyi, uşaqları sevməsi, yumor hissinin olması təşəbbüskarlığı, kommunikabelliyi, kreativliyi, pedaqoji mərifəti və s.);

Onun peşəsi üçün əhəmiyyəti keyfiyyətləri (nəzəri və metodiki hazırlığı);

Onun şagirdlərin emosional komfortunu təmin etməyə istiqamətlənməsi;

Onun şagirdlər arasında əməkdaşlığı, qarşılıqlı yardımı, zəiflərə köməklik göstərilməsini, sinifin həyatı ilə bağlı qərarların qəbuluna hər bir şagirdi cəlb etməsi;

Onun şagirdlərin birgə fəaliyyətini, sinifdənkənar tədbirləri, şagirdlərin asudə vaxtını səriştəl təşkil etməsi;

Onun sinifdə müəyyən ənənələr yaratması və bunlara əməl edərkən şagirdlər arasında ayrıseçkiliyə yol verməməsi (məsələn, şagirdlərin ad günlərinin sinifdə qeyd edilməsi, birgə

gəzintiləri, ekskursiyaları təşkil etməsi, təqvim bayramlarını şagirdlərlə birlikdə keçirməsi və s.) buna aid edilir;

Sinifin fəallarıınn: formal liderin və qeyri-formal qruplaşmaların, potensiallarından səriştəli istifadə etməsi;

Beləliklə, ayrı-ayrı sinif qruplarında əlverişli sosial-psixoloji iqlimin yaradılması, onun qorunub saxlanması mühüm praktik əhəmiyyət kəsb edir. Ona görə ki, bundan məktəbdə həyata keçirilən təlim-tərbiyə işinin keyfiyyəti və hər bir şagirdin şəxsiyyət kimi formalaşması bilavasitə asılıdır.

Aşağıda sinifdə əlverişli sosial-psixoloji iqlim formalaşdırmaq və saxlamaq üsulları sadalanmışdır ki, bunlardan da pedaqoqlar və məktəb psixoloqları bəhrələnə bilərlər:

Sosial-psixoloji iqlim sinifdəki şagirdlərin şəxsiyyətlərarsı münasibətlərinin, birgə fəaliyyətinin nəticəsi olduğu üçün , onun formalaşdırılması və mökəmləndirilməsi üçün qarşıya uşaqların birgə fəaliyyətini təşkil etmək məqsədini qoymaq, bu fəaliyyəti təşkil etmək üçün şərait yaratmaq lazımdı. Həmçinin birqə fəaliyyətin necə reallaşması barədə şagirdləri məlumatlandırmaq, fəalları, təşəbbüskarları, yaradıcı yanaşanları mükafatlandırmaq lazımdı.

Sinifin şagirdlərinin hamsının xoşuna gələn, hamsında maraq oyada bilən tədbirlər təşkil etmək lazımdı;

Sinif qrupunun ümumi maraqlarını tapıb ona uyğun ümumi işini təşkil etmək çox zəruridi;

Sinifin ənənələrini formalaşdırmaq, məktəbin ümumi ənənəvi tədbirlərində fəal iştirak etmək;

Asudə vaxtları birlikdə küçirməyə şagirdlərin hamısını cəlb etmək, birgə gəzintilərə, ekskursiyalara getmək;

Sinif həyatı üçün əhəmiyyətli olan hadisələrə görə birgə mütəəssir olmaq şəraiti yaratmaq, çalışıb hər bir uşağı sinifin emosional həyatına qoşmaq, birgə sevinməyi və birgə kədərlənməyi təmin etmək. Bunu həyata keçirmək üçün pedaqoqda uşaqlara və sinifə qarşı fəal mövqeyin olması mütləqdir.

Sinifin həyatına ümumbəşəri dəyərləri daxil etmək, neqativ emosiaların konstruktiv üsullarla azaldılmasına nail olmaq, heç kimin heç kimə öz baxışlarını zorla qəbul etdirməsinə imkan verməmək;

Sinifin həyatı ilə bağlı qəbul edilən qərarların verilməsi zamanı hər bir şagirdin rəyinə hörmətlə yanaşmaq;

Sinif qrupu ilə pedaqoji ünsiyyətdə demokratik ünsiyyət üslubunu prioritet qəbul etmək, sinifdə qarşılıqlı hörmət, yardım və əməkdaşlıq ənənələrini yaymaq;

Şagirdlər arasındakı qarşılıqlı münasibətlərdə qarşılıqlı kompromissi, hörməti ön plana çəkmək;

Sinifdə şagirdlərin özlərini maksimum komfortd hiss etməsi üçün şərait yaratmaq və getdikcə onu yaxşılaşdırmaq, müəllimlər və şagirdlər arasında müsbət münasibətləri qoruyub saxlamağa nail olmaq;

Sinifdə kommunikativ mədəniyyəti inkişaf etdirmək, ünsiyyət və əməkdaşlıq vərdişlərini möhkəmlətmək;

Sinif qrupu üzvlərini empatiya hisslərini inkişaf etdirmək, sinifdə tolerantlığı təmin etmək.

Bütün bu yuxarıda sadalananlara əməl etməklə sinif qrupunda əlverişli sosial-psixoloji iqlim yaratmaq, onu inkişaf etdirmək və qoruyub saxlamaq mümkündür. Bu, ilk növbələ, sinifin rəhbər müəlliminin bacarığından, səriştəsindən asılıdır. Sinifdə sağlam, əlverişli sosial-psixoloji iqlimin yaranmasında sinif rəhbəri olan müəllimin sinifə humanist yanaşması xüsusi əhəmiyyətə malikdir. O, sinifə rəhbərlik prosesində demokratik idarəetmə və ünsiyyət üslubuna üstünlük verməklə yanaşı, həm də çevik olmalı, zərurət olanda, digər rəhbərlik

üslublarından da, həmçinin sinifin qeyri-formal liderlərinin potensialından mövcud durumu saxlamaq üçün məharətlə istifadə etməlidir.

***Ədəbiyyat***


1.Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı. 2003.
2.Ə.Ə.Əlizadə., Müasir Azərb. məktəbinin psixoloji problemləri. "Ozan"nəşr. Bakı., 1998.
3.Вяльцева Н.Г., БоровецЕ.Н., Шуленина Н.С. Исследование социально-психологичеслого климата в классных коллективах. /Педагогика Высшей школы.
4.Мeждинародный научный журнал. №3 (06) 2016.
5.Краткий психологический словарь А.В.Петровского и М.Г.Ярошевского. Москва.
6.Маккена П., Мейстер Д. Первые среды равных: Как руководить профессионалами. М.: АСТ, Ермак. 2004.
7.Микляева А.В., Рюмянцева П.В. «Трудный класс» Диагностическая и коррекционная робота. – СПб.: Речь, 2006.
8.Савченко М.Ю., Обухова Л.А. Формирование коллектива класса: Сценарии занятий с учащимися. Работа с родителями. Диагностика учащихся. Занятия, тренинги. – М.: «5 за знания», 2006.


## СПОСОБЫ СОЗДАНИЯ БЛАГОПРИЯТНОГО СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКОГО КЛИМАТА В СТУДЕНЧЕСКИХ ГРУППАХ


***Асланова Зулала Махмуд кызы, Мамедов Ильхам Мамед оглы,***
***Нифталиева Наргиз Низами оглы***



***Резюме***

В статье анализирована проблема создание бдагоприятного социально-психологического климата в ученических классах. В ходе исследование было выявлено, что благоприятный социально-психологичеслий климат впрямую влияет на успешное усиоение знаний школьников, а также положительно влияет на формирование личности их


## WAYS OF FORMING USEFUL SOCIAL-PSYCHOLOGICAL CLIMATE AT STUDENT GROUPS


***Aslanova Zulala Mahmud, Mamamdov Ilham Mamamd,***
***Niftaliyeva Nargiz Nizami***



***Summary***

İn the article the problem of ways of forming useful social-psychological climate at student groups has been analyzed. It is defined in the research process that useful social-psychological climate forms a favorable condition for students' successful understanding the knowledge, as well as has positive sides on forming their personality.



***Rəyçi P.ü.f.d. Kazımova G.S.***
***Psixologiya kafedrasının 28 oktyabr 2021-ci il tarixli iclasın 02 saylı protokolu***
***Daxil olma tarixi 02 noyabr 2021-ci il***